**Azərbaycan Milli Teatrı – 150**

# Çağdaş səhnə "Qarabağnamə"si

## *Bu tamaşa Milli Dram Teatrının vizit kartına çevrilib*

**Milli səhnə kollektivləri yay tətilindən sonra pərdələrini yenidən açır. Akademik Milli Dram Teatrı 150-ci mövsümə, son illərin ənənəsinə uyğun olaraq, Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında hazırladığı "Qarabağnamə" tamaşası ilə gəldi.**

Mövsümün açılışında milli səhnəmizin bayraqdarı olan sənət ocağının bədii rəhbəri, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə tamaşaçıları yeni repertuar və kollektivin yaradıcılıq axtarışları barədə bilgiləndirdi. O bildirdi ki, "Qarabağnamə" tamaşası bu mövsümdə yeni quruluşda təqdim olunur. İlin sonuna qədər isə "Dantenin yubileyi", "Sənsiz" və "Əsrə bərabər gün" tamaşalarının premyerası olacaq.




Sonra pərdələr açıldı, 150 il əvvəl böyük maarifçi-demokrat Həsən bəy Zərdabinin öz yetirmələri ilə bina etdiyi milli teatrımız yeni mövsümə günümüz üçün xüsusi aktuallığı ilə seçilən mövzuda hazırladığı tamaşanın nümayişi ilə başladı. 2 əsr əvvəl Qarabağ xanlığının timsalında milli dövlətçiliyimizin bəlalı tarixçəsindən bəhs edən pyesin çağdaş faciələrimizlə və Qarabağ zəfərimizlə səsləşən dramatik səhnələri truppanın yüksək peşəkar oyunu ilə salonda yüksək vətənpərvərlik coşğusu yaratdı. Yaddaşları silkələyən sənət həqiqəti tarixi gerçəyi anlatmaqla dövlətçilik məfkurəsi yaşantısına çevrildi.

Yeni quruluşun rejissoru, Xalq artisti Mərahim Fərzəlibəyov rolları paylaşdığı Xalq artistləri Kazım Abdullayev, Firəngiz Mütəllimova, Rafiq Əzimov, Hacı İsmayılov, Əli Nurzadə, Əməkdar artistlər Elşən Rüstəmov, Məsmə Ağaverdiyeva, Kazım Həsənquliyev, Elxan Quliyev, Aslan Şirin, Elnar Qarayev, Əminə Babayeva, aktyorlar İlyas Əhmədov, Ramin Şıxəliyev, Ləman İmanova, Cavidan Novruz, Firuzə Balayeva, Nəzrin Abdullayeva, Məhsəti Tahirzadə, Elsevər Rəhimov və Tural İbrahimovla birgə milli dram səhnəmizə zənginlik və orijinal ifa tərzi gətirən tamaşa qurmağa nail olub.

Səhnə "Qarabağnamə"mizə dekorativ quruluşu rəssam İsmayıl Məmmədov verib. Geyim eskizləri rəssam Aygün Mahmudova məxsusdur. İşıq effektlərini Rafael Həsənov, musiqi müşayiətini isə Həmid Kazımzadə qurublar. Tamaşada Xalq artistləri Polad Bülbüloğlu və Vasif Adıgözəlovun Qarabağ mövzusunda əsərlərindən istifadə olunub.

Xatırladaq ki, İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri teatrın səhnəsində ilk dəfə 1996-cı ildə oynanılıb. Böyük uğur qazanan tamaşaya 1997-ci il sentyabrın 20-də maraqla baxmış Ümummilli lider Heydər Əliyev yaradıcı heyətlə görüşdə əsəri yüksək qiymətləndirib, ona hər kəsin baxmasının vacibliyini bildirib.

**_Tahir AYDINOĞLU_**
**_XQ_**